**Erməni hərbi əsirlərinə dair video**

**2023-004-FB-MR**

## İşə dair xülasə

Nəzarət Şurası Meta-nın müəyyən edilə bilən hərbi əsirləri təsvir edən bir videonu ehtiva etmiş Facebook paylaşımını saxlamaq və videoya “narahatlığa səbəb olan məzmun kimi işarələnib” xəbərdarlığı əlavə etmək qərarını qüvvədə saxlayıb. Şura Meta-nın məzmun paylaşma icazəsini paylaşıma düzgün şəkildə tətbiq etdiyini hesab edib, halbuki əks təqdirdə bu paylaşım, Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsi və Cinayətin təşviq edilməsi ilə bağlı İcma standartlarını pozduğu üçün slinəcəkdi. Bununla belə, Şura bu növ məzmunun dəyərləndirilməsi ilə bağlı şirkətdaxili təlimatı gücləndirməyi və insan hüquqları pozuntularına dair sübutun qorunub saxlanılması və müvafiq qurumlar ilə paylaşılması üçün bir protokol hazırlamağı Meta-ya tövsiyə edir.

### İş haqqında

2022-ci ilin oktyabr ayında bir Facebook istifadəçisi Dağlıq Qarabağ münaqişəsi kontekstində Azərbaycan tərəfindən Ermənistana qarşı törədilməsi iddia edilən hərbi cinayətləri sənədləşdirən bir səhifədə video paylaşmışdır. Sözü gedən münaqişə minlərlə insanın həlak olması və yüzlərlə insanın itkin düşməsi ilə nəticələnərək 2020-ci ilin sentyabr ayında yenidən alovlanmış və 2022-ci ilin sentyabr ayında Ermənistan ilə şiddətli döyüşlərə çevrilmişdir.

Video yalnız yaşı 18-dən yuxarı olan insanların izləməsi üçün müvafiq olduğunu bildirən, istifadəçi tərəfindən daxil edilmiş yaş məhdudiyyəti ilə bağlı xəbərdarlıq və İngilis dilində yazılmış “Azərbaycan terrorunu dayandırın. Dünya təcavüzkarları dayandırmalıdır.” mətni ilə başlayır. Videodan göründüyü kimi hərbi əsirlərin tutulması səhnəsi təsvir edilmişdir.

Videoda Azərbaycan əsgərləri kimi görünən, dağıntılar altında nəsə axtaran, üzləri qara kvadratlar ilə rəqəmsal şəkildə örtülmüş bir neçə insan göstərilir. Onlar dağıntılar altından

subtitrda Erməni əsgərləri kimi təsvir edilən, üzləri örtülməmiş və müəyyən edilə bilən insanları tapırlar. Bəzilərinin xəsarət aldığı, digərlərinin həlak olduğu görünür. Video yerdə oturan yaralı əsgərə rus və türk dillərində dayanmadan söyüşlər söyərək bağıran və təhqiramiz ifadələrdən istifadə edən, videonu çəkən şəxsin olduğu ehtimal edilə biləcək, kadrlarda görünməyən bir şəxslə bitir.

İstifadəçi ingilis və Azərbaycan dillərində olan subtitrda videonun Azərbaycan əsgərlərinin erməni hərbi əsirlərinə işgəncə verdiyini təsvir etdiyini bildirir. Subtitrda, həmçinin 2022-ci ilin iyul ayında Avropa İttifaqı və Azərbaycan arasında 2027-ci ilə qədər Azərbaycandan qaz ixracatını iki dəfə artırmaq üçün bağlanan qaz sövdələşməsi də vurğulanır.

**Əsas tapıntılar**

Şura sözü gedən işdə məzmunun Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsinə və Cinayətin təşviq edilməsinə dair İcma standartlarını pozmasına baxmayaraq, Meta-nın məzmunu Facebook-da saxlamağa icazə vermək üçün məzmun paylaşma icazəsini düzgün şəkildə tətbiq etdiyini hesab edir, bununla belə, Zorakılıq ehtiva edən və Həssas xarakterli məzmuna dair İcma standartlarına əsasən, videonun məzmununda “narahatlığa səbəb olan məzmun kimi işarələnib” xəbərdarlığının olması tələb olunmuşdur. Bu qərarlar Meta-nın dəyərlərinə və insan hüquqları ilə bağlı öhdəliklərinə uyğun olmuşdur.

Sözü gedən iş hərbi əsirlərin şəxsiyyətlərinin və yerlərinin açıqlanmasının onların ləyaqətinə xələl gətirə və ya onları birbaşa zərərə məruz qoya biləcək münaqişə vəziyyətlərində Meta-nın məzmun moderasiyasına yanaşması ilə bağlı mühüm sualları önə çəkir. İnsan ləyaqəti ilə əlaqədar narahatlıqlar əsirlərin alçaldıcı və ya qeyri-insani hallarda göstərildiyi vəziyyətlərdə açıq şəkildə nümayiş olunur. Eyni zamanda belə təcrübə ictimai diskussiyanı məlumatlandıra, beynəlxalq insan hüquqları və beynəlxalq humanitar hüquq daxil olmaqla potensial pis rəftar halları ilə bağlı maarifləndirmə səviyyəsini artıra bilər. Bu, həmçinin hüquqları qoruyan və məsuliyyətli olmağı təmin edən tədbir dinamikası yarada bilər. Meta, beynəlxalq cinayətləri təqib etmək və insan hüquqları ilə bağlı məhkəmə çəkişmələrini dəstəkləmək məqsədilə müvafiq ola biləcək sübutun qorunub saxlanmasına yardım etmək üçün unikal bir mövqeyə sahibdir.

Hərbi əsirlərin görüntülərinin sosial media vasitəsilə paylaşılma miqyası və tezliyi bu ziddiyyətli maraqları həll etmək prosesini mürəkkəbləşdirir. Hərbi əsirlərin üzləşdiyi kəskin zərərləri və riskləri nəzərə alaraq, Şura hərbi əsirlərin şəxsiyyətlərini və ya yerlərini açıqlaya biləcək məlumatın paylaşılmasını qadağan edən Meta-nın standart qaydasının şirkətin BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə əsasən, üzərinə götürdüyü insan hüquqları ilə bağlı öhdəliklərinə uyğun olduğunu hesab edir(UNGP-nin 12-ci prinsipə dair şərh). Silahlı münaqişələr zamanı bu öhdəliklərin əhatə dairəsi genişləndirilir və onlar beynəlxalq humanitar hüququn qaydalarına əsaslanılmalıdır. Şura xəbərdarlıq əlavə edərək məzmunu platformada saxlamaqda ictimai marağın dəyərinin hərbi əsirlərin təhlükəsizliyinə və ləyaqətinə olan riskdən daha önəmli olması ilə əlaqədar Meta ilə razıdır.

**Nəzarət Şurasının qərarı**

Nəzarət Şurası "narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığı əlavə edərək, Meta-nın paylaşımı Facebook-da saxlamaq qərarını qüvvədə saxlayır.

Şura, həmçinin aşağıdakıları Meta-ya tövsiyə edir:

- Qanlı cinayətləri və ya kobud insan hüquqları pozuntularını aradan qaldırmaq və ya təqib etmək məqsədilə aparılan araşdırmalara və hüquqi proseslərə yardım etmək məqsədilə məlumatı qoruyub saxlamaq və uyğun olduğu təqdirdə səlahiyyətli qurumlar ilə paylaşmaq üçün bir protokol hazırlamaq.
- Hərbi əsirlərin şəxsiyyətini və ya yerlərini açıqlayan məzmunun eskalasiyasının və qiymətləndirilməsinin paylaşmaya uyğunluğunu daha yaxşı şəkildə əsaslandırmaq məqsədilə dəyərləndiricilərə və eskalasiya komandalarına əlavə təlimat təmin etmək.
- İstifadəçilərə məqamları tam şəkildə aydınlaşdırmaq məqsədilə ictimai marağa və Şəffaflıq mərkəzində onun paylaşılma icazəsinin ictimai izahına əsasən, hərbi əsirlərin şəxsiyyətini və ya yerini açıqlayan, platformada saxlanılmış məzmuna dair bir nümunə əlavə etmək.
- Qanlı cinayətlərə və kobud insan hüquqları pozuntularına dair sübutun qorunub saxlanılması üzrə protokolu hər kəsə açıq şəkildə paylaşmaq.

* İşə dair qısa xülasələr işə dair icmalı təmin edir və presedent qüvvəsinə malik deyil.

## İşə dair tam qərar

### 1. Qərarın qısa xülasəsi

1. Nəzarət Şurası Meta-nın kimliyi müəyyən edilə bilən hərbi əsirləri təsvir edən bir videonun olduğu Facebook paylaşımını saxlamaq və videoya "narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığı əlavə etmək qərarını qüvvədə saxlayır. Şura Meta-nın məzmun paylaşma icazəsini məzmuna düzgün şəkildə tətbiq etdiyini hesab edib, halbuki əks təqdirdə bu məzmun silahlı münaqişə kontekstində hərbi əsirlərin şəxsiyyətini açıqladığı üçün Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsi və Cinayətin təşviq edilməsi ilə bağlı İcma standartlarını pozduğuna görə onun tərəfindən silinəcəkdi. Həssas xarakterli və Zorakılıq ehtiva edən məzmuna dair İcma standartlarına əsasən, "narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığının olması tələb edilmişdir. Bu qərarlar Meta-nın dəyərlərinə və insan hüquqları ilə bağlı öhdəliklərinə uyğun olmuşdur.

2. Meta-nın Şuraya yönləndirdiyi sözügedən iş hərbi əsirlərin şəxsiyyətlərinin və yerlərinin açıqlanmasının onları birbaşa zərərə məruz qoya biləcək və ya ləyaqətinə xələl gətirə biləcək münaqişə vəziyyətlərində şirkətin məzmun moderasiyasına yanaşması ilə bağlı mühüm sualları önə çəkir. Yaşamaq, təhlükəsiz həyat və şəxsi həyat ilə əlaqədar və işgəncəyə, qeyri-insani və alçaldıcı rəftara məruz qalmamaq ilə bağlı hüquqlarından, eləcə də yaxın qohumlarının şəxsi həyat və təhlükəsiz həyat ilə əlaqədar hüquqlarından istifadə edərkən, əsirlərin müdafiəsiz və ya alçaldıcı hallarda göstərildiyi vəziyyətlərdə insan ləyaqəti ilə bağlı narahatlıqlar kəskin şəkildə ola bilər. Eyni zamanda belə təcrübə ictimai diskussiyanı məlumatlandıra, beynəlxalq insan hüquqları və humanitar hüquq daxil olmaqla potensial pis rəftar halları ilə bağlı maarifləndirmə səviyyəsini artıra bilər. Bu, həmçinin hüquqları qoruyan və məsuliyyətli olmağı təmin edən tədbir dinamikası yarada bilər. Meta, həmçinin məzmunun silinib və ya saxlanılmasından asılı olmayaraq, beynəlxalq cinayətləri təqib etmək və insan hüquqları ilə bağlı məhkəmə çəkişmələrini dəstəkləmək məqsədilə faydalı ola biləcək sübutun qorunub saxlanmasına yardım etmək üçün unikal bir mövqeyə sahibdir.

3. Hərbi əsirlərin görüntülərinin sosial media vasitəsilə paylaşılma miqyası və tezliyi bu ziddiyyətli maraqları həll etmək prosesini mürəkkəbləşdirir. Hərbi əsirlərin üzləşdiyi

kəskin zərərləri və riskləri nəzərə alaraq, Şura hərbi əsirlərin şəxsiyyətlərini və ya yerlərini açıqlaya biləcək məlumatın paylaşılmasını qadağan edən Meta-nın standart qaydasının şirkətin BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə əsasən (UNGP-nin12-ci prinsipə dair şərh) üzərinə götürdüyü silahlı münaqişələr zamanı əhatə dairəsi genişlənən və beynəlxalq humanitar hüququn qaydalarına əsaslanılmalı olan insan hüquqları ilə bağlı öhdəliklərinə uyğun olduğunu hesab edir. Şura xəbərdarlıq əlavə edərək məzmunu platformada saxlamaqda ictimai marağın dəyərinin hərbi əsirlərin təhlükəsizliyinə və ləyaqətinə olan riskdən daha önəmli olması ilə əlaqədar Meta-nın dəyərləndirməsi ilə razıdır. Məzmunun platformada saxlanılması ictimaiyyətin kobud qanunsuz fəaliyyətdən xəbərdar olması və xüsusilə hazırkı məzmunda qanunsuz fəaliyyətin hər kəsə açıq şəkildə açıqlanması vasitəsilə insan hüquqları ilə bağlı ağır zərərlərin potensial şəkildə qarşısını almaq, təsirini yüngülləşdirmək və aradan qaldırmaq üçün zəruri olmuşdur.

4. Şura hərbi əsirlərin şəxsiyyətini və ya yerlərini açıqlayan məzmunun ayrı-ayrılıqda zəruri səriştəyə malik olan şəxslər tərəfindən dəyərləndirilə bilməsi üçün dəyərləndiricilərə və eskalasiya komandalarına əlavə təlimat təmin etməyi Meta-ya tövsiyə edir. Meta şəffaf şəkildə paylaşılması tövsiyə olunan bu hallarda məzmunun paylaşılmaya uyğunluğunun dəyərləndirilməsini təlimatlandırmaq məqsədilə daha təfsilatlı meyarlar hazırlamalıdır. Şura beynəlxalq cinayət hüququ, insan hüquqları və humanitar hüquq ilə bağlı kobud pozuntuları aradan qaldırmaq və ya təqib etmək məqsədilə aparılan araşdırmalara və hüquqi proseslərə yardım etmək üçün Meta-nı məlumatı qoruyub saxlamağa və uyğun olduğu təqdirdə səlahiyyətli qurumlar ilə paylaşmağa çağırır.

## 2. İşin təsviri və ümumi məlumatlar

5. 2022-ci ilin oktyabr ayında bir Facebook istifadəçisi Dağlıq Qarabağ münaqişəsi kontekstində Azərbaycan tərəfindən Ermənistana qarşı törədilməsi iddia edilən hərbi cinayətləri sənədləşdirən bir səhifədə video paylaşmışdır. Sözügedən münaqişə minlərlə insanın həlak olması və yüzlərlə insanın itkin düşməsi ilə nəticələnərək 44 günlük İkinci Dağlıq Qarabağ Müharibəsi ərzində 2020-ci ilin sentyabr ayında yenidən alovlanmış və 2022-ci ilin sentyabr ayında Ermənistan ilə şiddətli döyüşlərə çevrilmişdir.

6. İstifadəçi ingilis və Azərbaycan dillərində olan subtitrda videonun Azərbaycan əsgərlərinin erməni hərbi əsirlərinə işgəncə verdiyini təsvir etdiyini bildirir. Həmçinin subtitrda Avropanın Rusiya qazından asılılığını azaltmaq üçün 2027-ci ilə qədər Azərbaycandan qaz ixracatını iki dəfə artırmaq məqsədilə 2022-ci ilin iyul ayında Avropa İttifaqı və Azərbaycan arasında bağlanan qaz sövdələşməsinə də diqqət çəkilir.

7. Video yalnız 18 yaşdan yuxarı şəxslərin izləməsi üçün müvafiq olduğunu bildirən, istifadəçi tərəfindən daxil edilmiş yaş məhdudiyyəti ilə bağlı xəbərdarlıq və İngilis dilində yazılmış "Azərbaycan terrorunu dayandırın. Dünya təcavüzkarları dayandırmalıdır." mətni ilə başlayır. Videoda hərbi əsirlər kimi tutulan əsgərlər göstərilir. Videoda Azərbaycan əsgərləri kimi görünən, dağıntılar altında nəsə axtaran bir neçə insan göstərilir; onların üzləri qara kvadratlar ilə rəqəmsal şəkildə örtülüb. Onlar dağıntılar altından subtitrda erməni əsgərləri kimi təsvir edilən insanları tapırlar; onların üzləri örtülməyib və şəxsiyyətləri müəyyən edilə bilir. Bəzilərinin xəsarət aldığı, digərlərinin həlak olduğu görünür. Onlar ağrıdan ağlayan bir əsgəri dağıntılar altından çıxarırlar. Onun üzü açıqdır və xəsarət aldığı görünür. Video yerdə oturan yaralı əsgərə yerdən qalxması üçün rus və türk dillərində dayanmadan söyüşlər söyərək bağıran və təhqiramiz ifadələrdən istifadə edən, videonu çəkən şəxsin olduğu ehtimal edilə biləcək, kadrlarda görünməyən bir şəxslə bitir. Şəxs ona deyiləni etməyə cəhd edir. Məzmunun paylaşıldığı səhifənin 1000-dən az izləyicisi var. Məzmuna 100 dəfədən az baxılıb və ona 10-dan az reaksiya verilib. Video hər hansı istifadəçi tərəfindən paylaşılmayıb və ya qaydaları pozan məzmun kimi şikayət edilməyib.

8. Meta münaqişə davam edərkən vəziyyətə nəzarət etdiyini Şuraya bildirir. Meta-nın Qlobal Əməliyyatlar komandası məsələ ilə əlaqədar (xəbər və sosial media trendləri kimi) şirkətdən kənar mənbələrə nəzarət edilməsini ehtiva edən riskə nəzarəti yerinə yetirmək məqsədilə Meta-nın təhlükəsizlik komandası ilə tədbirləri təşkil etmişdir. Nəzarət ərzində təhlükəsizlik komandası internetdə geniş yayılan Azərbaycan əsgərlərinin erməni hərbi əsirlərinə işgəncə verdiyi bir videonu göstərən Twitter paylaşımlarını aşkar etmiş və sonra bu işi araşdırarkən eyni videonu Facebook-da müəyyən etmişdir. Təhlükəsizlik komandası Facebook-dakı paylaşımı Meta tərəfindən "eskalasiya" prosesi kimi təsvir edilən əlavə dəyərləndirməyə göndərmişdir. Məzmun eskalasiya edildikdə, o, siyasət və təhlükəsizlik baxımından dəyərləndirilməsi məqsədilə Meta daxilində əlavə komandalara göndərilir. Bu işi araşdırarkən Meta-nın Qlobal Əməliyyatlar komandası məzmunun paylaşmaya

uyğunluğunu dəyərləndirmək məqsədilə məzmunu eskalasiya edərək Meta-nın siyasət məsələləri üzrə komandasına göndərməyə qərar vermişdir.

9. Meta məzmunu dəyərləndirərkən məzmun paylaşıldıqdan sonra iki gün ərzində məzmun paylaşma icazəsini vermişdir. Bu icazə Meta-nın platformalarında məzmunun saxlanılmasına icazə verir, halbuki əks təqdirdə bu məzmun, məzmuna olan ictimai marağın zərər riskini üstələdiyi təqdirdə onun siyasətlərini pozmuş olacaqdı. Məzmun paylaşma icazəsi məzmun əlavə dəyərləndirmə üçün eskalasiya edildikdən sonra yalnız Meta daxilindəki mütəxəssis komandaları tərəfindən tətbiq edilə bilər.

10. Meta-nın siyasət məsələləri üzrə komandaları tərəfindən eskalasiya edilmiş dəyərləndirmənin bir hissəsi kimi Zorakılıq ehtiva edən və həssas xarakterli məzmunna dair siyasətə əsasən "narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığı tətbiq edilmiş və məzmun konkret videoya və platformada müəyyən edilən eyni videolara avtomatik olaraq xəbərdarlıq ekranı yerləşdirən Qrafik zorakılıq ehtiva edən mediya eyniləşdirmə xidməti (MMS) təşkilatının siyahısına əlavə edilmişdir. Bununla belə, texniki və insan tərəfindən yol verilən xətalara görə bu uğursuz olmuş və təxminən bir ay sonra manual şəkildə tamamlanmalı olmuşdur.

11. Meta işin "hərbi əsirlərin şəxsiyyətinin açıqlanmasından qaynaqlanan potensial zərər ilə bu məsələlərə dair maarifləndirmə səviyyəsinin artırılmasının dəyərini tarazlaşdırmaq" ilə bağlı tələb olunan çətinliyi nümayiş etdirdiyini bildirərək bu işi Şuraya yönləndirmişdir. Meta məzmunun saxlanmasına icazə vermək qərarının onun "Təhlükəsizlik", "Ləyaqət" və "Səda" ilə bağlı dəyərlərinin tarazlaşdırılmasını müvafiq şəkildə təcəssüm etdirib-etdirmədiyini və onun beynəlxalq insan hüquqları prinsiplərinə uyğun olub-olmadığını nəzərə almağı Şuradan xahiş etmişdir.

## 3. Nəzarət Şurasının səlahiyyəti və əhatə dairəsi

12. Şura Meta-nın dəyərləndirmə üçün göndərdiyi qərarları dəyərləndirmək səlahiyyətinə malikdir (Nizamnamənin 2-ci maddəsi, 1-ci bölmə; Əsasnamənin 2-ci maddəsi, 2.1.1-ci bölmə).

13. Şura Meta-nın qərarını qüvvədə saxlamaq və ya ləğv etmək səlahiyyətinə malikdir (Nizamnamənin 3-cü maddəsi, 5-ci bölmə) və bu qərar şirkət üçün mütləq qüvvəyə malikdir (Nizamnamənin 4-cü maddəsi). Meta eyni məzmun ilə bağlı qərarını paralel məzmun ilə tətbiq etməyin mümkünlüyünü də qiymətləndirməlidir (Nizamnamənin 4-cü maddəsi). Şuranın qərarlarına Meta-nın cavab verməli olduğu məcburi olmayan tövsiyələr ehtiva edən siyasətlə bağlı məsləhət bildirişləri daxil ola bilər (Nizamnamənin 3-cü maddəsi, 4-cü bölmə; 4-cü maddə). Meta tövsiyələri yerinə yetirməyi üzərinə götürdüyü təqdirdə Şura onların icrasına nəzarət edir.

## 4. Səlahiyyət və təlimat mənbələri

14. Aşağıdakı standartlar və presedentlər sözügedən işdə Şuranın təhlillərini təlimatlandırmışdır.

I. *Nəzarət Şurasının qərarları:*

15. Nəzarət Şurasının əvvəlki ən müvafiq qərarlarına aşağıdakılar daxildir:
- “Hindistandakı cinsi qısnamaya dair video” (2022-012-IG-MR)
- “Nigeriyada kilsəyə hücumdan sonrakı video” (2022-011-IG-UA)
- “Rus şeiri” (2022-008-FB-UA)
- “Sudandakı məzmunu həssas xarakterli video” (2022-002-FB-MR)
- “Kolumbiyadakı etirazlar” (2021-010-FB-UA)
- “Sabiq prezident Trampın fəaliyyətinin müvəqqəti dayandırılması” (2021-001-FB-FBR)

II. *Meta-nın məzmuna dair siyasətləri:*

16. Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsinə və cinayətin təşviq edilməsinə dair İcma standartları “siyasətin məntiqi əsaslandırması” başlığı altında bəyan edir ki, “oflayn zərərin və təqlidçi davranışın qarşısını almaq və zərərsizləşdirmək məqsədilə biz insanlara digər şəxsləri, biznesləri, mülkiyyəti və ya heyvanları hədəfə alan müəyyən cinayət və ya zərərli fəaliyyətlərə vasitəçilik etməyi, təşkil etməyi, təbliğ etməyi və ya tanımağı qadağan edirik.” Məzmunda daha sonra bəyan edilir ki, “biz insanlara zərərli və ya cinayət fəaliyyətini müdafiə etməyənə və ya təşkil etməyənə qədər şahidi ola və ya qarşılaşa biləcəkləri bu cür fəaliyyətə diqqət cəlb etmək üçün [...] etməyə icazə veririk.” 4 may 2022-

ci il tarixində “əlavə məlumat və/və ya icra ediləcək məzmun” başlığı altında əlavə edilmiş bir qaydaya əsasən Meta “adını, qeydiyyat nömrəsini və/və ya görüntülərini paylaşaraq silahlı münaqişə kontekstində hərbi əsirin şəxsiyyətini və ya yerini açıqlayan məzmunu” xüsusilə qadağan edir və bu qaydada hər hansı xüsusi istisna halı qeyd olunmur.

17. Zorakılıq ehtiva edən və həssas xarakterli məzmun ilə bağlı İcma Standartı “siyasətin məntiqi əsaslandırması” başlığı altında bəyan edir ki, onun mövcud olmasının səbəbi “istifadəçiləri narahatlığa səbəb olan görüntülərdən qorumaqdır”. Siyasətdə daha sonra qeyd olunur ki, “təsadüfən və ya qətl nəticəsində bir şəxsin və ya şəxslərin zorakı şəkildə ölümünü əks etdirən görüntü” və “bir şəxsə və ya şəxslərə qarşı törədilən işgəncələri əks etdirən görüntü” insanların məzmunun narahatlığa səbəb ola biləcək bir məzmun olduğundan və yalnız 18 yaşdan yuxarı olan yetkin insanların məzmuna baxa biləcəyindən xəbərdar olması məqsədilə xəbərdarlıq ekranının arxasına yerləşdirilir. Qaydanın “paylaşmaq qadağandır” hissəsində istifadəçilərin siyasətə əsasən xəbərdarlıq ekranı tələb edən görüntü ilə bağlı sadist şərhlər paylaşa bilmədikləri izah edilir.

18. Şuranın təhlili Meta-nın “ali bir tərkib hissə kimi təsvir etdiyi” “Səda” ilə bağlı öhdəliyi və “Təhlükəsizlik”, “Məxfilik” və “Ləyaqət” ilə bağlı dəyərləri ilə əsaslandırılmışdır.

19. Məzmun paylaşma icazəsi hərbi əsirlərlə bağlı qayda daxil olmaqla İcma standartları daxilindəki bütün siyasət sahələrinə potensial şəkildə tətbiq oluna bilən ümumi siyasətə dair bir istisnadır. Məzmun paylaşma icazəsi Meta-nın “səda ilə bağlı öhdəliyinə” əsasən izah edilir. Əks təqdirdə qaydaları pozan məzmunun, belə etməyə ictimai marağın dəyəri zərər riskini üstələyərsə, platformada saxlanılmasına icazə verilir. Meta-nınİcma standartlarına giriş hissəsindən əlaqələndirilən paylaşmaya dəyən məzmuna yanaşmasına uyğun olaraq Məzmun Siyasəti Komandasına eskalasiyanın ardından bu cür qiymətləndirmələr yalnız “nadir hallarda” yerinə yetirilir. Bu komanda sözügedən məzmunun ictimai sağlamlığa və ya təhlükəsizliyə birbaşa təhdid törədib-törətmədiyini və ya siyasi prosesin bir hissəsi kimi hazırda müzakirə olunan perspektivlərə təkan verib-verməmədiyini qiymətləndirir. Bu qiymətləndirmə ölkənin müharibə şəraitində olub-olmadığı daxil olmaqla ölkəyə xas olan vəziyyətləri nəzərə alır. Danışanın şəxsiyyəti nəzərə alınan müvafiq məqam olmaqla bərabər, yayımlama icazəsi xəbər agentlikləri tərəfindən paylaşılan məzmunla məhdudlaşdırılmır.

*III. Meta-nın insan hüquqlarına dair öhdəlikləri*

20. 2011-ci ildə BMT-nin İnsan Hüquqları Şurası tərəfindən təsdiqlənmiş BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərində (UNGPs) özəl bizneslərin insan hüquqlarına dair öhdəlikləri ilə əlaqədar könüllü olan ümumi prinsiplər müəyyən edilir. 2021-ci ildə Meta, UNGPs-əuyğun olaraq insan hüquqlarına hörmətlə yanaşmaq ilə bağlı öhdəliklərini bir daha təsdiqlədiyi İnsan Hüquqlarına dair Korporativ Siyasətini bəyan etmişdir. Xarakterik olaraq UNGPs münaqişə şəraitində fəaliyyət göstərən bizneslərə əhatə dairəsi genişlənmiş öhdəlik şamil edir ("Biznes, insan hüquqları və münaqişənin təsirinə məruz qalmış bölgələr: əhatə dairəsi genişlənmiş tədbirə doğru," A/75/212). Şuranın sözügedən işdə Meta-nın insan hüquqları ilə bağlı öhdəliklərinə dair təhlili beynəlxalq humanitar hüquq sahəsindəki standartlar (eləcə də "silahlı münaqişələr hüququ" kimi tanınır) daxil olmaqla aşağıdakı beynəlxalq standartlar ilə əsaslandırılmışdır.

- Söz azadlığı hüququ: 19-cu maddə, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (ICCPR), 34 saylı Ümumi Şərh, İnsan Hüquqları üzrə Komitə, 2011; Söz və fikir azadlığı hüququnun təşviqi və müdafiəsi üzrə BMT-nin Xüsusi Məruzəçisi, hesabatlarA/68/362 (2013); A/HRC/38/35 (2018); A/74/486 (2019); A/77/288 (2022).
- Yaşamaq hüququ: 6-cı maddə, ICCPR.
- İşgəncəyə, qeyri-insani və ya alçaldıcı rəftara məruz qalmamaq hüququ: 7-ci maddə, ICCPR.
- Şəxsi həyatla bağlı hüquq: 17-ci maddə, ICCPR.
- Hərbi əsirlərin təhqir və ictimai maraqdan qorunması: 13-cü maddə, paraq. Hərbi Əsirlərlə Rəftar haqqında 2 Konvensiya III (Cenevrə Konvensiyası III), Cenevrə Konvensiyası (III) Şərh, Beynəlxalq Qızıl Xaç Komitəsi (ICRC), 2020 (Cenevrə Konvensiyası III Şərh).

## 5. İstifadəçinin müraciətləri

21. Meta-nın işi yönləndirməsinin və Şuranın onu qəbul etmək qərarının ardından istifadəçiyə Şuranın dəyərləndirməsi barədə bildirişi ehtiva edən və ona Şuraya bəyanat təqdim etmək imkanı verən bir mesaj göndərilmişdir. İstifadəçi bəyanatı təqdim etməmişdir.

## 6. Meta-nın müraciətləri

22. "Məzmunun paylaşmaya uyğunluğunun dəyərinin müharibə və zorakılıq kontekstində zərər riskini üstələyib-üstələmədiyini müəyyən edərkən [Meta]-nın qarşılaşdığı çətinliklər

sözügedən işdə vurğulandığı üçün” Meta onu Şuraya yönləndirmişdir. Məzmunun Meta-nın Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsinə və cinayətin təşviq edilməsinə dair siyasətini pozduğunu nəzərə alaraq Azərbaycan və Ermənistan arasındakı “münaqişənin hərbi əsirlərinə qarşı zorakılıq barədə maarifləndirmə səviyyəsini artırmaq məqsədilə” məzmun paylaşma icazəsi tətbiq olunmuşdur. Meta işin davam edən hərbi münaqişə ilə əlaqəli olduğu üçün “əhəmiyyətli”, lakin sözügedən məsələlərə dair maarifləndirmənin dəyərini “hərbi əsirlərin şəxsiyyətini açıqlamaqdan qaynaqlanan potensial zərərlə tarazlaşdırmağı” tələb etdiyi üçün “çətin” olduğunu bildirmişdir.

23. Meta izah edir ki, o, hərbi əsirlərin “şəxsiyyətini açıqlamağı” qadağan edir, amma onun eskalasiya komandalarına həmin qaydanı icra etmək üçün “əlavə məzmun” tələb olunur. Meta platformalarından hərbi əsirləri ictimai marağa məruz qoymaq məqsədilə istifadə olunması riklərini nəzərə alaraq həm ICCPR-ın 19-cu maddəsindən söz azadlığı prinsiplərini, həm də Cenevrə Konvensiyalarının təlimatını qeyd edərək, hərbi əsirlərin təhlükəsizliyinə və ləyaqətinə ciddi yanaşdığı ilə bağlı faktı əks etdirmək məqsədilə bu qaydanı əlavə etmişdir. Şura bu cür məzmunun silinməsi üçün onun Meta-nın daxili komandaları tərəfindən dəyərləndirilməsi məqsədilə heyətin araşdırma komandalarının onu bayraqla işarələməli olacaqlarını və ya tələb olunan miqyasda dəyərləndiricilərin məzmunu həmin komandalara eskalasiya etmələrinin lazım olacağını anlayır. Bu komandalar icra tədbirinə dair qərar vermək üçün məzmundan kənar məzmun amillərini nəzərə almağı bacarırlar. Məzmun artıq Meta-nın daxili komandaları tərəfindən qaydaları pozan məzmun kimi qiymətləndirilən və media eyniləşdirmə təşkilatlarının siyahısına əlavə edilən məzmunla eyni və ya demək olar ki, eyni olduğu təqdirdə yalnız avtomatlaşdırılmaqla silinə bilər.

24. Şuranın suallarına cavab olaraq Meta sözügedən işdə məzmunu qaydaları pozan məzmun kimi müəyyənləşdirmək məqsədilə nəzərə aldığı əlavə məzmunun aşağıdakıları ehtiva etdiyini təsdiqləmişdir: (i) hərbçilər müəyyən edilə bilən əsirlərin erməni əsgərləri olduğunu təsdiqləmişlər və (ii) Azərbaycan və Ermənistan arasında davam edən münaqişə barədə məlumatlılıq. “Hərbi əsir” Cavablandırılan Suallar adlanan şirkətdaxili təlimatda dəyərləndiriclər üçün “silahlı münaqişə ərzində və ya ondan dərhal sonra əks qüvvələr tərəfindən tutulmuş və ya onların əlinə keçmiş silahlı qüvvələrin bir üzvü” kimi tərif edilir. Bu qaydanı müşayiət edən şirkətdaxili icra standartlarında Meta hərbi əsirin adını, soyadını, qeydiyyat nömrəsini və/və ya “pisləyici və ya maarifləndirmə səviyyəsini artırmaq” məzmununda paylaşılsa belə, hərbi əsirin üzünü göstərən görüntünü

paylaşaraq onun şəxsiyyətini və ya yerini açıqlayan məzmunun silinməli olduğunu izah edir.

25. Şuranın suallarına cavab olaraq Meta Böhran Siyasətinə dair Protokoldan ikinci Dağlıq-Qarabağ müharibəsi və ya Azərbaycan və Ermənistan arasında davam edən sərhədyanı toqquşmalar ərzində istifadə olunmadığını qeyd etmişdir. Böhran Siyasətinə dair Protokol Meta-nın dəyərləndirmə komandalarına yalnız eskalasiyaya dair siyasətləri tətbiq etmək imkanı verir və o, Şuranın "sabiq prezident Trampın fəaliyyətinin müvəqqəti dayandırılması işinə dair tövsiyələrinə cavab olaraq yaradılmışdır. Meta hərbi əsirlərin şəxsiyyətini açıqlayan məzmunun silinməsi ilə bağlı daimi siyasətin mövcud olması səbəbindən şirkətdaxili eskalasiya komandalarının bu məzmunu silmək üçün standart prosesinin protokol işə salındığı təqdirdə dəyişməz olaraq qalacağını izah etmişdir.

26. Məzmun paylaşma icazəsini tətbiq edərkən Meta aşağıdakı bir neçə amilləri nəzərə alaraq ictimai marağı zərər riski ilə müqayisə edən tarazlaşdırma testi yerinə yetirdiyini qeyd edir: (i) məzmunun ictimai sağlamlığı və ya təhlükəsizliyi birbaşa təhdid edib-etmədiyi; (ii) məzmunun hazırda siyasi prosesin bir hissəsi kimi müzakirə edilən perspektivlərə dəstək verib-vermədiyi; (iii) idarəetmə və ya siyasət ilə əlaqəli olub-olmadığı daxil olmaqla nitqin xarakteri; (iv) azad mətbuata malik olub-olmadığı daxil olmaqla ölkənin siyasi strukturu və (v) ölkəyə xas olan digər hallar (məsələn, qarşıdan seçkilərin gəlib-gəlmədiyi və ya ölkənin müharibə şəraitində olub-olmaması).

27. Meta bu videonun məzmununun həssas xarakterli olduğunu və hərbi əsirlərin sosial mediada müəyyən edildiyi təqdirdə onların qarşılaşa biləcəyi riskləri dərk etdiyini bildirmişdir. Şuranın suallarına cavab olaraq Meta hərbi əsirlər müəyyən edildiyi və ya ifşa edildiyi təqdirdə onların ailə üzvlərinin və dostlarının təcrid olunmaya, şübhəyə və ya hətta zorakılığa məruz qala biləcəklərini anladığını bildirmişdir. Meta həmçinin bu cür görüntülərin digər tərəfdə ziddiyyəti gücləndirmək və qərəzliyi intensivləşdirmək daxil olmaqla mülki şəxsləri və hərbçiləri müxtəlif təsirlərə məruz qoya biləcəyini qeyd etmişdir. Meta öz millətini və ya ordusunun davranışını tənqid etdiyi lentə alınan hərbi əsirin ölkəsinə qayıdarkən düşmən tərəfindən pis rəftara məruz qalan əsirlərlə müqayisədə təcrid olunma və qisas yolu ilə cəzalandırılma riskinin daha yüksək olduğunu qeyd etmişdir. Bu münaqişə kontekstində Meta bu cür videoların sözügedən mənfi təsirlərə səbəb olduğuna dair sübuta malik olmamış, lakin beynəlxalq təşkilatların hərbi əsirlərə

qarşı pis rəftarın dayandırılması üçün Azərbaycana qarşı təzyiqi artırmaq məqsədilə bu cür videolardan istifadə etdiklərinə dair sübutlar aşkar etmişdir. Maarifləndirmə səviyyəsini artırmaqda və mümkün hərbi cinayətlərə dair sübut təmin etməkdə sözügedən məzmunun ictimai marağının potensial dəyərini nəzərə alaraq Meta onun paylaşmaya ümumi uyğunluğunu hesaba almaqla bu məzmunun silinməsinin mütənasib bir addım olmayacağı qənaətinə gəlmişdir.

28. Meta həmçinin şahidləri, xəbərçiləri, girov saxlanan şəxsləri və ya digər saxlanılmış insanları müəyyən edən məzmunun, saxlanılma ilə bağlı ictimaiyyətin ixtiyarında olan məlumatın onların təhlükəsizliyinə olan riskləri artıra biləcəyi təqdirdə Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsinə və cinayətin təşviq edilməsinə dair İcma standartlarına əsasən silinə biləcəyini əlavə olaraq vurğulamışdır. Fiziki şəxsləri müəyyən edən və ya şəxsiyyətini açıqlayan məzmun da Məxfiliyin pozulmasına dair siyasətə əsasən şəxsən müəyyən edilə bilən məlumatın Meta platformalarında paylaşıldığı təqdirdə silinə bilər. Nəhayət, qurbanlar hərbi əsirlər olmadığı təqdirdə belə Zorakılıq ehtiva edən və həssas xarakterli məzmuna dair siyasət tətbiq olunmuş olardı, çünki bu siyasətə əsasən Meta həm zorakılıq qurbanlarının ləyaqətini və təhlükəsizliyini, həm də insanların bu məzmunu görmək istəməyə biləcəkləri faktını nəzərə alır.

29. Şuranın suallarına cavab olaraq Meta hərbi əsirləri daha təfsilatlı şəkildə müəyyən edərək məzmuna məzmun paylaşma icazəsini necə tətbiq etdiyinə dair nümunələr də təqdim etmişdir. Məsələn, Meta ümumən Efiopiyadakı hərbi əsirlərin şəxsiyyətini açıqlayan məzmunu sildiyini, lakin bəzi məzmunların paylaşmaya dəyən olub-olmadığına dair qərarları ayrı-ayrılıqda verdiyini Şuranın nəzərinə çatdırmışdır. Əvvəlki işlərdə məzmun paylaşma icazəsinin tətbiq edilməsində nəzərə alınan amillərə məzmunda aşağıdakıların ehtiva olunub-olunmadığı daxildir: (i) yüksək rütbəli zabitlər və ya silahlı qrupların liderləri kimi yüksək rütbəyə malik hərbçilərin tutulmasına dair məruzənin olub-olmadığı; (ii) potensial olaraq açıqlanması əsirin maraqlarına uyğun olduqda (məs, onun itkin düşdüyü bildirildikdə) onun şəxsiyyətini açıqlayıb-açıqlamadığı; və ya (iii) potensial insan hüquqları pozuntularına dair maarifləndirmənin səviyyəsini artırıb-artırmadığı. Meta "Ukraynada rus [hərbi əsirlərini] göstərən bir neçə məzmunu platformada saxlamaq" məqsədilə məzmun paylaşma icazələri verdiyini də bildirmişdir.

30. Meta məzmunu qiymətləndirərkən etibarlılıq məsələsi şübhə altına alınmayana və ya manipulyasiya edilmiş media göstəricələri olmayana və yaxud da məlumatın saxta olması ilə bağlı bir məzmun mövcud olmayana qədər ona səthi yanaşdığını da qeyd etmişdir. Sözügedən işdə Meta onun Yanlış məlumat ilə bağlı siyasətlərini pozan hər hansı meyar aşkar etməmişdir.

31. Şura Meta-ya 16 sual vermişdir. Məzmun paylaşma icazəsinin tətbiqi ilə əlaqədar suallar; Meta-nın qərarlarında məzmun qiymətləndirməsi ilə bağlı amillər; və Böhran Siyasətinə dair Protokolun tətbiqi. Meta 16 suala cavab vermişdir.

## 7. İctimaiyyət tərəfindən şərhlər

32. Nəzarət Şurasına bu işlə əlaqədar ictimaiyyət tərəfindən 39 şərh bildirilmişdir. Bir şərh Asiya-Sakit Okean və Okeaniya bölgəsindən, üç şərh Mərkəzi və Cənubi Asiyadan, 23 şərh Avropadan, dörd şərh Orta Asiya və Şimali Afrika bölgəsindən və səkkiz şərh Amerika Birləşmiş Ştatları və Kanada bölgəsindən bildirilmişdir.

33. Müraciətlər aşağıdakı mövzuları əhatə etmişdir: Dağlıq-Qarabağ münaqişəsi və son eskalasiyalar barədə ümumi məlumat; hərbi əsirlərin şəxsiyyətini və ya yerini açıqlayan məzmunun moderasiyasına beynəlxalq humanitar hüququn tətbiqi; sosial mediada hərbi əsirlərin üzünü göstərən məzmun ilə bağlı narahatlıq; hərbi əsirləri təsvir edən məzmunun platformada saxlanmasından və ya silinməsindən qaynaqlana biləcək potensial zərərli və müsbət təsirlər; beynəlxalq cinayətlər ilə bağlı potensial sübutu qoruyub saxlayan müstəqil mexanizmlər; sosial media agentlikləri arasında əməkdaşlıq, vətəndaş cəmiyyəti təşkilatları və beynəlxalq ədalət mexanizmləri; video məzmunun təsdiqlənməsi ilə bağlı narahatlıq; məzmunu sosial media platformalarında necə saxlamağa və hərbi əsirlərin təhlükəsizliyini və ləyaqətini qorumağa dair icra/texniki məsələlər ilə bağlı təkliflər; növbəti vəhşiliklərin qarşısının alınmasında bu cür məzmunun yardımçı olmaq potensialı; və hərbi əsirlərlə pis rəftardan ictimaiyyətin xəbərdar olmaq hüququ.

34. Bu iş ilə bağlı təqdim olunan ictimaiyyət şərhlərini oxumaq üçünburaya klikləyin.

35. 2023-cu ilin aprel ayında Şura səhmdarlar arasında davam edən qarşılıqlı əlaqənin bir hissəsi kimi vəkillik təşkilatlarının nümayəndələri, akademiklər, hökumətlərarası

təşkilatlar və hərbi əsirləri əks etdirən məzmunun moderasiyası ilə əlaqədar məsələlər üzrə digər mütəxəssislər ilə məsləhətləşmişdir. Çatham Haus qaydası əsasında dəyirmi masa keçirilmişdir. Bu, şəxsiyyəti müəyyən edilə bilən hərbi əsirlər barədə məzmunun paylaşılması üçün motivlərə, potensial risk amillərinə və hərbi əsirlərə qarşı zorakılıq barədə maarifləndirmə səviyyəsinin faydalarını onların şəxsiyyətini açıqlamaqdan qayanaqlanan potensial zərərlə tarazlaşdırmaq üsullarına fokuslanmışdır. Bu görüşdə təqdim olunan fikirlər dəyərli olmuşdur və Şura bütün iştirakçılara öz minnətdarlığını bildirir.

## 8. Nəzarət Şurasının təhlili

36. Şura sözügedən məzmunun xəbərdarlıq ekranı əlavə edilərək platformada saxlanıb-saxlanılmamasını müəyyənləşdirmək məqsədilə Meta-nın məzmunla bağlı siyasətlərini, insan hüquqlarına dair öhdəliklərini və dəyərlərini təhlil etmişdir. Şura həmçinin bu işin nəticələrinin Meta-nın xüsusilə münaqişə və böhran vəziyyətlərində məzmun idarəetməsinə daha geniş yanaşması ilə bağlı qiymətləndirmişdir.

37. Şura bu işi hərbi əsirləri əks etdirən məzmunun moderasiya edilməsində Meta-nın siyasət və vərdişlərinin qiymətləndirilməsi üçün bir imkan kimi seçmişdir. Əlavə olaraq, sözügedən iş böhran və münaqişə vəziyyətlərində ümumilikdə Meta-nın insan hüquqlarına dair öhdəliklərinə uyğunluğunu yoxlamağa imkan verir.

### 8.1 Meta-nın məzmuna dair siyasətlərinə uyğunluq

38. Şura məzmunun Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsinə və cinayətin təşviq edilməsinə dair İcma standartlarını pozmasına baxmayaraq, Meta-nın məzmunu Facebook-da saxlamağa icazə vermək üçün məzmun paylaşma icazəsini düzgün şəkildə tətbiq etdiyini hesab edir, bununla belə, Zorakılıq ehtiva edən və Həssas xarakterli məzmuna dair İcma standartlarına əsasən videonun məzmununda "narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığının olması tələb olunmuşdur.

*I. Məzmuna dair qaydalar*

*a. Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsi və cinayətin təşviq edilməsi*

39. Şura sözügedən işdə məzmunun saxlanılan erməni əsgərlərinin üzlərini göstərən video görüntülər vasitəsilə hərbi əsirlərin şəxsiyyətini açıqladığını hesab edir. O, bu səbəbdən Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsinə və cinayətin təşviq edilməsinə dair icma standanrtlarında bu cür məzmunu qadağan edən qaydanı açıq şəkildə pozmuşdur.

40. Bu qaydanın icrası üçün əlavə məlumat və/və ya məzmun tələb etdiyini qəbul edərək Şura əsgərlərin formalarında üzləri görünən fiziki şəxslərin erməni silahlı qüvvələrinin üzvləri olduqlarının qeyd olunduğu ilə əlaqədar Meta ilə razıdır. Meta-nın dəyərləndiricilər üçün daxili təlimatlarında ehtiva olunan "hərbi əsir" tərifinə əsasən, müharibənin məzmununda bu əsgərlərin Azərbaycan silahlı qüvvələri tərəfindən saxlanıldığı qeyd edilmişdir. Bu məlumat məzmunun görüntü paylaşma yolu ilə hərbi əsirlərin şəxsiyyətini açıqlayan məzmunu qadağan edən qaydaya zidd olduğunu hesab etmək üçün yetərli olmuşdur.

*b. Məzmun paylaşma icazəsi*

41. Şura videoya ictimai marağın zərərin potensial risklərini üstələdiyini və platformalararası trendlər daxil olmaqla xüsusi biliyə və məzmun ilə bağlı əlavə məlumata çıxışı olan eskalasiya komandalarının məzmunu platformada saxlamaq məqsədilə məzmun paylaşma icazəsini tətbiq etməsini uyğun hesab edir. Hər bir kəsin nitqinin mahiyyətcə paylaşmaya dəyən olduğunun güman edilməməsinə baxmayaraq, məzmun paylaşma icazəsinin qiymətləndirilməsi ölkəyə xas halları və nitqin və məruzəçinin xarakteri daxil olmaqla müxtəlif amilləri nəzərə alır. Bu cür hallarda ictimaiyyətin kobud qanunsuz fəaliyyətdən xəbərdar olması və qanunsuz fəaliyyətin hər kəsə açıq şəkildə açıqlanması yolu ilə kobud insan hüquqları ilə bağlı zərərlərin qarşısını almaq, təsirini yumşaltmaq və aradan qaldırmaq potensialı daxil olmaqla Meta-nın Korporativ İnsan Hüquqları Siyasətində qeyd olunduğu kimi beynəlxalq insan hüquqları standartlarına uyğun olaraq ictimai marağı məxfiliyə, ləyaqətə, təhlükəsizliyə və sədaya zərər riskləri ilə müqayisə etmək məqsədilə hərtərəfli dəyərləndirmə yerinə yetirməyi Meta-ya tövsiyə edirik.

42. Silahlı münaqişə kimi mürəkkəb və hadisələrin sürətlə cərəyan etdiyi bir vəziyyətdə məzmun paylaşma icazəsinin tətbiqi risklərin təsirini yumşaltmaq və ictimaiyyətin vacib məlumatlara çıxışını təmin etmək məqdsədilə məzmun baxımından ayrı-ayrılıqda yerinə yetirilən bir dəyərləndirmə tələb edir. 6-cı bölmədə təfsilatlı şəkildə izah edilən Meta-nın müəyyən etdiyi bütün amillər videonun nümayişindən qaynaqlanan ağır zərərlərin

potensialının bu cür məzmunun qadağan edilməsindən ortaya çıxa biləcək zərərli təsirlər ilə müqayisəli şəkildə qiymətləndirilməsinə aid olmuşdur. Xüsusilə sözügedən münaqişədə saxlanılanlara qarşı pis rəftarı davam etdirmək məqsədilə istifadə olunan, əsasən sosial mediada əlçatan olan oxşar məzmun trendləri ilə çəkilən və ağır cinayətlərə dair hesabatlılıq ilə bağlı aksiyalar və məhkəmə araşdırmaları üçün əhəmiyyətli dərəcədə müvafiq olan belə videolar barədə sübutun mövcud olmaması məzmunu platformada saxlamağın lehinə işləmişdir.

43. Şura Meta-nın insan hüquqları üzrə öhdəliklərini nəzərə alaraq onun potensial zərərləri operativ şəkildə ayrı-ayrılıqda qiymətləndirilməsini təmin etmək məqsədilə tələb olunan məzmuna xas ətraflı statistikanı əldə etmək üçün Meta-nın müvafiq iş prinsiplərinə sahib olmasının vacibliyini vurğulayır.

*c. Zorakılıq ehtiva edən və həssas xarakterli məzmun*

44. Məzmun paylaşma icazəsinə əsasən, məzmunun platformada saxlanılmalı olması barədə qərarının ardından Şura videonun zorakılıq ehtiva edən və həssas xarakterli məzmununun “narahatlığa səbəb olan məzmun kimi işarələnib” xəbərdarlığını qoymağı əsaslandırdığını hesab edir. Xəbərdarlıq ekranı ikili funksiyaya malik olmaqla istifadəçiləri məzmunun həssas xarakteri barədə xəbərdar etmək və 18 yaşdan yuxarı yetkin şəxslərə məzmunu göstərmək imkanını məhdudlaşdırmaq məqsədi daşıyır. Meta-nın bu ekranı tətbiq etmək üçün əsaslandığı siyasət bəndini qeyd etməməsinə baxmayaraq, Şura iki qaydanın əhatə olunduğunu hesab edir.

45. Əvvəlcə videodan göründüyü kimi dağıntılar altında erməni əsgərlərinin cəsədləri olan kadrlar göstərilir. Moderatorlar üçün daxili təlimatların “həssas xarakterli məzmun kimi işarələnib” xəbərdarlığının tətbiq olunacağı polis funksiyasını yerinə yetirən bir və ya daha çox forma geyinən heyət üzvü tərəfindən törədilən zorakılığı istisna etməsinə baxmayaraq, daxili təlimatlarda “polis funksiyası” əlavə olaraq “kütləyə nəzarəti yerinə yetirərək və/və ya insanları saxlayaraq ictimai asayişin qorunması” kimi tərif edilir və “müharibənin polis funksiyası olmadığı aydınlaşdırılır.” Məzmun silahlı münaqişə ilə əlaqəli olduğu üçün Şura onun Meta-nın “narahatlığa səbəb olan məzmun kimi işarələnib” xəbərdarlığı əlavə etmək ilə bağlı siyasətlərinə uyğun olduğunu hesab edir.

46. Şura videoda Meta-nın insanlara qarşı işgəncə tərifinə uyğun olan hərəkətlərin göstərildiyi üçün onun əlavə olaraq ikinci siyasət bəndini də əhatə etdiyini qeyd edir. Meta-nın siyasətinin icrası məqsədi üçün moderatorlar üçün daxili təlimatlarda bu cür "işgəncə" görüntüləri aşağıdakılar kimi tərif olunur (i) dominant və ya zorla məhdudlaşdırılmış mövqedə və aşağıdakı hər hansı vəziyyətlərdən birində olan şəxsin görüntüsü: (a) şəxsə silah tuşlanıb; (b) şəxsin xəsarət aldığına dair sübut mövcuddur; və ya (c) şəxs zorakılığa məruz qalır; və ya (ii) alçaldıcı hərəkətlərə məruz qalmış şəxsin görüntüsü. Meta əlavə olaraq "dominant mövqeyi" "qurbanın diz üstə durduğu, küncə sıxışdırıldığı və ya özünü müdafiə edə bilmədiyi" hallar daxil olmaqla "fiziki cəhətdən əli-qolu bağlandığı, sarıldığı, diri-diri basdırıldığı və ya başqa şəkildə iradəsinə zidd olaraq saxlandığı üçün "zorla məhdudlaşdırılmış hər hansı bir mövqe kimi tərif edir." Meta-nın "işgəncə" tərifinin beynəlxalq hüquqa əsasən, başa düşülən termindən daha geniş mənaya malik olduğunu qeyd edərək Şura onun Meta-nın "narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığını və onu müşayiət edən yaş məhdudiyyətini tətbiq etməklə bağlı qaydalarına uyğun olduğunu hesab edir. Şirkətdaxili təlimatlara uyğun olaraq məzmunda fiziki şəxslərin öz iradələrinə zidd olaraq məhbus kimi saxlanıldıqlarına və özlərini müdafiə edə bilmədiklərinə dair yetərincə göstəricilər mövcuddur. Bundan əlavə, göründüyü kimi saxlanılanlardan bir neçəsi xəsarət almış, digərləri isə həlak olmuşdur.

## 8.2 Meta-nın insan hüquqlarına dair öhdəliklərinə uyğunluq

47. Şura Meta-nın məzmunu platformada saxlamaq qərarının, silahlı münaqişələr vəziyyətində əhatə dairəsi genişlənən Meta-nın insan hüquqları üzrə öhdəliklərinə uyğun olduğunu hesab edir.

*Söz azadlığı (19-cu maddə, ICCPR)*

48. 19-cü maddə, paraq. ICCPR 2 məlumata çıxış hüququ daxil olmaqla geniş mənada söz azadlığının qorunmasını təmin edir. Bu qoruma mexanizmləri silahlı münaqişələr ərzində aktiv şəkildə qalmağa davam edir və onlardan hərbi əsirlərin müdafiəsi daxil olmaqla bu cür münaqişələr zamanı tətbiq olunan beynəlxalq humanitar hüququn qarşılıqlı şəkildə təsdiqləyici və əlavə qaydaları ilə yanaşı Meta-nın insan hüquqları üzrə öhdəliklərini https://www.icrc.org/en/document/what-difference-between-ihl-and-human-

rights-law məlumatlandırmağa davam etməsi gözlənilir. (31 saylı Ümumi Şərh, İnsan Hüquqları üzrə Komitə, 2004, paraq. 11; UNGP-lərə dair şərh, 12-ci prinsip; həmçinin BMT-nin xüsusi məruzəçisininSilahlı münaqişələr zamanı yanlış məlumat və söz və fikir azadlığı ilə bağlı hesabatına baxın, Hesabat A/77/288, paraq. 33-35 (2022); və silahlı münaqişələr zamanı insan hüquqlarının beynəlxalq miqyasda hüquqi cəhətdən qorunmasına dair OHCHR-ın hesabatı (2011) səh. 59).

49. Beynəlxalq humanitar hüquq xüsusilə hərbi əsirlərə qarşı zorakılıq hərəkətlərini və ya hədə-qorxunu qadağan edən, eləcə də onları təhqir və ictimaiyyətin marağına məruz qoyan hərbi əsirlərlə rəftar ilə bağlı müəyyən zəmanətlər təmin edir. (13-cü maddə, paraq. 2-ci Cenevrə Konvensiyası (III)). Şuranın silahlı münaqişə vəziyyətində söz azadlığına dair təhlili beynəlxalq humanitar hüquqdakı daha dəqiq qaydalar ilə əsaslandırılır. ICRC-nin 13-cü maddəyə dair şərhində “hərbi əsir kimi ‘ictimaiyyətin marağına' məruz qalmağın, bu cür maraq təhqiramiz şərhlər və ya hərəkətlər ilə müşayiət olunmadığı təqdirdə belə özü-özündə alçaldıcı olduğu izah edilir və bu səbəbdən internet də daxil olmaqla istifadə olunan bağlantı kanalından asılı olmayaraq xüsusilə qadağandır” [...] və şərhdə bu qadağaya aşağıda izah edilən kiçik müstəsnalar tətbiq edilir (ICRC-nin şərhi, səh. 1624)

50. BMT-nin xüsusi məruzəçisi qeyd etmişdir ki, “silahlı münaqişə zamanı insanlar ən zəif və həssas vaxtlarını yaşayır və özlərinin təhlükəsizliyini və rifahını təmin etmək üçün dəqiq və etibarlı mənbədən məlumata ən çox ehtiyac duyurlar.” Bununla belə, məhz bu vəziyyətlər onların bütün növ məlumat və ideyanı axtarmaq, əldə etmək və ötürmək azadlığını ehtiva edən söz və fikir azadlıqlarının müharibə vəziyyətlərindən və siyasi, hərbi və strateji məqsədlər üçün məlumatın manipulyasiyası və məhdudlaşdırması məqsədilə münaqişə tərəflərinin və digər iştirakçıların hərəkətlərindən ən çox məhdudlaşdırıldığı anlardır (Hesabat A/77/288, paraq. 1).

51. İnsan hüquqları pozuntularının qurbanları üçün də daxili olmaqla məlumata çıxış hüququ arasında əlaqə həmçinin mandat sahibi tərəfindən vurğulanmışdır (Hesabat A/68/362, paraq. 92 (2013)). Münaqişə vəziyyətlərində jurnalizmin bəzi ən vacib məqamları hərbi əsirlər ilə bağlı məlumatın və görüntülərin paylaşılmasını ehtiva etmişdir. 1945-ci ildə nasist konslagerlərinin azad edilməsinin ardından şahidlərin məhbuslara dair ifadələri, eləcə də 1992-ci ildə Bosniyadakı Omarska həbs düşərgəsindən şahid ifadələri bu müharibələrin dəhşətləri və törədilən vəhşiliklər ilə bağlı qlobal fikrin yenidən formalaşmasında zəruri olmuşdur. Eynilə 2004-cü ildə İraqdakı Əbu Qərib həbsxanasında

məhbus zorakılığına dair geniş yayılmış görüntülər ictimaiyyət tərəfindən pislənmiş və bu zorakılıqlar ilə əlaqədar bir neçə məhkəmə təqiblərinə səbəb olmuşdur.

52. Dövlət tərəfindən söz azadlığı ilə bağlı məhdudiyyətlər tətbiq edildiyi təqdirdə bunlar qanuniliyin tələblərinə, qanuni məqsədə, zərurətə və mütənasiblik prinsipinə əsaslanmalıdır. (19-cu maddə, paraq. 3, ICCPR). Bu tələblərə adətən “üç hissəli test" kimi istinad olunur. Şura bu ümumi prinsipdən söz azadlığına hörmətlə yanaşmaq öhdəliyini ehtiva edən Meta-nın insan hüquqları üzrə öhdəliklərini şərh etmək məqsədilə istifadə edir. BMT-nin söz azadlığı üzrə xüsusi məruzəçisinin qeyd etdiyi kimi, “şirkətlərin hökumətlər kimi öhdəliklərinin olmamasına baxmayaraq onların təsir sahəsi onlardan öz istifadəçilərinin söz azadlığına hüquqlarının qorunması ilə bağlı eyni cür sualları qiymətləndirməyi tələb edən bir qəbildəndir” (hesabatA/74/486, paraq. 41).

*I. Qanunilik (qaydaların aydınlığı və əlçatanlığı)*

53. Beynəlxalq insan hüquqları hüququna əsasən, qanuniliyin prinsipləri aydın və hər kəsə açıq şəkildə əlçatan olması məqsədilə söz və ifadələri məhdudlaşdıran qaydaları tələb edir (Ümumi Şərh, 34-cü paraq. 25). Söz və ifadələri məhdudlaşdıran qaydalar icrasına cavabdeh olanlar ilə bağlı söz azadlığının məhdudlaşdırılması ilə əlaqədar “tam qərar vermə azadlığını təmin etməyə və hansı növ söz və ifadələrin müvafiq qaydada məhdudlaşdırıldığını və hansılarının məhdudlaşdırılmadığını müəyyənləşdirməyə imkan yaratmaq məqsədilə “icrasına cavabdeh olanlarla bağlı yetərincə təlimat təqdim etməyə bilər” (ibid). “Onlayn nitqi tənzimləyən qaydalara tətbiq edildikdə onlar aydın və müvafiq olmalıdırlar" deyə BMT-nin söz azadlığı üzrə xüsusi məruzəçisi qeyd etmişdir (A/HRC/38/35, paraq. 46). Meta-nın platformalarından istifadə edən insanların qaydalara daxil ola və onları anlaya bilmələri və məzmun dəyərləndiricilərinin onların icrasına dair aydın şəkildə ifadə olunan təlimatları olmalıdır.

54. Şura Meta-nın hərbi əsirlərin şəxsiyyətini açıqlayan məzmunu qadağan edən qaydasının, eynilə ictimaiyyətin marağı onu tələb etdiyi əks təqdirdə bu qaydanı pozmuş olacaq Meta-nın Məzmun Siyasəti Komandasının məzmunu müstəsna hal olaraq platformada saxlamaq potensialı kimi sözügedən işdə məzmunu tənzimləmək üçün yetərincə aydın şəkildə ifadə olunduğunu hesab edir. “Narahatlığa səbəb olan məzmun kimi işarələnib” xəbərdarlığını həssas xarakterli və zorakılıq ehtiva edən məzmuna tətbiq etməklə bağlı

siyasətin bəndləri sözügedən işdə məzmunu tənzimləmək üçün yetərincə aydın şəkildə ifadə olunandır.

55. Eyni zamanda Meta-nın məzmun paylaşma icazəsinə dair izahatları onun hərbi əsirlərin şəxsiyyətini açıqlayan məzmuna necə tətbiq oluna biləcəyinə dair əlavə təfərrüatlar təmin edə bilər. Meta-nın paylaşıma dəyən məzmuna yanaşmasını təsvir edən məzmun paylaşma icazəsinin tətbiq edildiyi üç nümunədən heç birində Zərərə səbəb olacaq tədbirlərin təşkil edilməsinə və cinayətin təşviq edilməsinə dair İcma standartlarından bəhs olunmur. Nümunələrdən birinin münaqişə vəziyyəti ilə əlaqəli olmasına baxmayaraq münaqişəyə xarakterik meyarlar və ya amillər əsas siyasət qaydalarına dair izahatların bir hissəsi kimi daha hərtərəfli şəkildə ictimailəşdirilə bilərdi. Şuranın əvvəlki tövsiyələrinə cavab olaraq Meta xəbərdarlıq ekranını nə vaxt tətbiq edəcəyinə dair məzmun paylaşma icazəsi barədə hər kəsə açıq izahatına məlumat əlavə etmək ("Sudandakı məzmunu həssas xarakterli video," 2 saylı tövsiyə) və hər kəsə açıq izahatları İcma standartlarına yönləndirən səhifəyə əlaqələndirmək və etirazlar barədə səhifə daxil olmaqla ("Kolumbiyadakı etirazlar," 2 saylı tövsiyyə) məzmunun paylaşmaya uyğunluğu səhifəsinə nümunələr əlavə etmək daxil olmaqla artıq məzmun paylaşma icazəsi ilə bağlı daha aydın məlumat təqdim edib. Şura xüsusilə böhran və münaqişə vəziyyətlərində istifadəçilər üçün artırılmış şəffaflığın və təlimatın vacibliyini vurğulayır.

*II. Qanuni məqsəd*

*a. Müəyyən oluna bilən hərbi əsirlərin təsvir edilməsini qadağan edən İcma standartları*

56. Yaşamaq, şəxsi həyat ilə əlaqədar və işgəncədən və ya qəddar, qeyri-insani və yaxud alçaldıcı rəftardan qorunmaq ilə bağlı hüquq daxil olmaqla digərlərinin hüquqlarına hörmətlə yanaşmaq söz azadlığı hüququ üzrə məhdudiyyətlərlə bağlı qanuni məqsəddir (19-cu maddə, paraq. 3, ICCPR). Sözügedən işdə müəyyən oluna bilən hərbi əsirlərin təsvir edilməsi ilə bağlı qadağanı şərtləndirən məqsədin qanuniliyinin qiymətləndirilməsi silahlı münaqişə vəziyyəti ilə və məzmun hərbi əsirləri "təhqirə" və "ictimaiyyətin marağına" məruz qoyduğu təqdirdə hərbi əsirlərin həyatının, məxfiliyinin və ləyaqətinin qorunmasını tələb edən beynəlxalq humanitar hüququn daha konkret qaydaları ilə əsaslandırılır(13-cü maddə, paraq. 2-ci Cenevrə Konvensiyası (III)).

57. Hərbi münaqişə məzmununda Cenevrə Konvensiyasının 13-cü maddəsində hərbi əsirlərlə insani şəkildə rəftar ilə bağlı zəmanətlər verilir və məzmun paylaşma icazəsinin əlçatanlığı ilə birləşdirilən Meta-nın ümumi qaydası bu funksiyanı dəstəkləyir. Real həyatdakı potensial zorakılığa əlavə olaraq, təkcə görüntülərin paylaşılması alçaldıcı ola və məhbusun şəxsi həyat ilə bağlı hüququnu poza bilər, çünki saxlanılan fiziki şəxslərin bu cür görüntülərin çəkilməsinə və ya paylaşılmasına məntiqi olaraq razılıq verməsi mümkünsüzdür. Belə görüntülərin paylaşılma təcrübəsini yaşamaq şəxsi yenidən qurbana çevirə bilər və bu, müharibənin qanunlarını birbaşa pozmaq məqsədilə sosial mediadan necə sui-istifadə oluna biləcəyini göstərir. Bu, sadəcə təsvir edilən hərbi əsirlərə tətbiq olunmaqdan savayı hərbi əsirləri, eləcə də onların hədəfə alına biləcək ailə üzvlərini daha geniş bir qoruyucu funksiya ilə təmin edir. Bu hüquqların qorunması Meta-nın şəxsi həyat, təhlükəsizlik və ləyaqət ilə bağlı dəyərləri ilə yaxından əlaqəlidir. Şura Meta-nın müəyyən oluna bilən hərbi əsirlərin təsvir edilməsini qadağan edən İcma standartlarını qanuni hesab edir.

b. *Meta-nın xəbərdarlıq ekranları ilə bağlı qaydaları*

58. Şura Meta-nın zorakılıq ehtiva edən və həssas xarakterli məzmun ilə bağlı qaydalarının “Sudandakı məzmunu həssas xarakterli video” işində və o vaxtdan bəri başqa bir neçə işlərdə qanuni məqsədlərə xidmət etdiyini təsdiqləmişdir. Sözügedən işin və ona bənzər digər məzmun kontekstində “narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığını təmin edən qaydalar istifadəçilərə internetdə gördükləri məzmunla bağlı daha çox seçim təmin edir.

*III. Zərurət və mütənasiblik*

59. Zərurət və mütənasiblik prinsipində söz azadlığı ilə bağlı hər hansı məhdudiyyətin onun qoruyucu funksiyasına nail olmağa müvafiq olmalı olduğunu təmin edir; o, öz qoruyucu funksiyasına nail ola biləcək alətlər arasında ən az məhdudlaşdırıcı alət olmalı və “o, qorunacaq marağa mütənasib olaraq tətbiq olunmalıdır" (34 saylı ümumi şərh, paraq. 34).

60. Şuranın zərurət və mütənasiblik ilə bağlı təhlili beynəlxalq humanitar hüququn daha konkret qaydaları ilə əsaslandırılır. ICRC, Cenevrə Konvensiyası III, 13-cü maddənin paraqrafına əsasən Hərbi cinayətləri təqib etmək, cavabdehliyi təşviq etmək və paylaşılan

materiallarda fiziki şəxslərə qarşı yetirilə biləcək zorakılıq, potensial alçaldılma və hətta fiziki zərər ilə bağlı ictimaiyyəti maarifləndirmək məqsədilə sübut kimi istifadə olunarkən, hərbi əsirləri təsvir edən materialların dəyərinin yüksək olduğunu nəzərə alaraq 2 bu cür materialların hər kəsə açıq olaraq açıqlanmasının faydaları arasında yaradılmalı olan bir "məntiqi tarazlaşdırma" tələb edir. Daha sonra ICRC media ilə bağlı öz təlimatında hərbi əsirin şəxsiyyətinin açıqlanmasında "ictimaiyyətin israrlı marağı" olarsa və ya bunu etmək hərbi əsirin "həyati zəruri marağını" güdərsə, bu cür materialların müstəsna hallarda açıqlana biləcəyini qeyd edir ((1627))-ci səhifədəki 13-cü maddəyə dair ICRC-nin şərhi.

61. Meta-nın standart qaydası beynəlxalq humanitar hüquqda ehtiva olunan məqsədlərə uyğundur. Silahlı münaqişə məzmununda təsvir olunan bir şəxsin müəyyən oluna bilən hərbi əsir olub-olmadığının aşkar edilməsi mütəxəssis yanaşması tələb edir. Bu səbəbdən "icra məqsədi üçün əlavə məzmun" tələb edən və beləliklə icra edilə bilməzdən öncə şirkətdaxili komandalara eskalasiyanı tələb edən qayda zəruri hesab olunur. Məzmun hərbi əsirlərin şəxsiyyətini və ya yerini açıqladığı təqdirdə bu cür məzmundan qaynaqlana bilən zərərlərin ciddiliyini nəzərə alaraq silinmə ümumən mütənasib qaydada yerinə yetiriləcək. Bir çox hər kəsə açıq şərhlərdə bu cür zərərlər barədə nümunələr paylaşılmışdır. Təbliğat məqsədləri üçün hərbi əsirləri təsvir edən məzmundan istifadə ilə bağlı narahatlıqlar bildirilmişdir (məs, Rəqəmsal Hüquqlar Fondu, PC-11137 və İqor Mirzəxanyan, PC-11144-ə baxın). Bu cür narahatlıqlar xüsusilə əsir götürən tərəfin görüntüləri yayması ilə bağlıdır.

62. Hərbi əsirlər şəxsiyyətləri açıqlandığı təqdirdə bir çox potensial zərərlərlə qarşılaşa bilərlər (məs, 19-cu maddə, PC-11096-ya baxın). Bu, azadlığa buraxıldıqda əsirin alçaldılmasını və onun və ya yaxın qohumlarının təcrid edilməsini ehtiva edə bilər. İstifadəçi məzmunu yaxşı niyyətlə maarifləndirmə səviyyəsini artırmaq və ya pis rəftarı pisləmək məqsədilə paylaşdığı təqdirdə belə hələ də ciddi zərərlər yetirilə bilər. Sözügedən məsələdə iddia edilən hərbi əsirlərin üzləri görünür və onların tutulduqları an təsvir edilir. Bu proses bəzilərinin xəsarət aldığı, digərlərinin isə həlak olduğu görünən və dayanmadan bağırmaqla əsirlərə ünvanlanan təhqiramiz ifadələr və söyüşlər ilə müşayiət olunur.

63. Bununla belə, sözügedən məsələdə məzmun paylaşmaya uyğunluq üçün potensial Məzmun Siyasəti Komandasına eskalasiyaya səbəb olaraq düzgün şəkildə müəyyənləşdirilmişdir. Potensial zərərin təhdidamiz dərəcədə olduğu insan hüquqları ilə əlaqəli mürəkkəb nəticələri qiymətləndirmək məqsədilə bu növ eskalasiyaların zəruri bilik

və təcrübəyə malik komandalara çatdırıldığını təmin etmək vacibdir. Silahlı münaqişə kontekstində bu risklərin ciddiliyi bu işi Şuranın məzmun paylaşma icazəsinin miqyaslılıq imkanları ilə bağlı narahatlıqlarını bildirdiyi əvvəlki qərarlarından fərqləndirir (məs, "Sudandakı məzmunu həssas xarakterli video" və ya "Hindistandakı cinsi qısnama ilə bağlı video").

64. Video sözügedən işdə beynəlxalq humanitar hüquq ilə bağlı iddia edilən pozuntuları sənədləşdirir. Videonu əsir götürən tərəfin çəkmiş ola biləcəyinə baxmayaraq, istifadəçinin paylaşımının potensial pozuntular barədə maarifləndirməyə yönəldiyi görünür. Bu, əsirlərin tutulması, onların sağ olmasına dair sübut və həbsin fiziki şəraiti, eləcə də potensial qanunsuz fəaliyyətə dair aydınlıq gətirmək ilə əlaqədar ictimaiyyətin məlumata çıxış hüququ baxımından vacibdir.

65. Meta-nın məzmun paylaşma icazəsinin peşəkar media tərəfindən paylaşılmayan məzmuna tətbiq oluna bilməsi düzgündür. Buna baxmayaraq münaqişə vəziyyətlərində məsuliyyətli reportaj üzrə jurnalistlər üçün əlçatan olan təlimatda hərbi əsirləri müəyyən edən görüntülərin açıqlanması ilə bağlı bir ehtimal və ictimaiyyətin israrlı marağı olduğu təqdirdə belə əsirlərin ləyaqətini qorumaq məqsədilə cəhdlərin göstərilməsinin zəruriliyi qeyd olunur.

66. Hərbi əsirlərə qarşı olanlar da daxil olmaqla Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsində qeyd olunan cinayətlər kimi kobud insan hüquqları pozuntularını və ya qanlı cinayətləri təsvir edən məzmunu qoruyub saxlayan sosial media agentlikləri vacib şirkətlər hesab olunurlar. İctimaiyyətin şərhlərində Meta-dan bu sahədə öz iş vərdişlərinə, xüsusilə də beynəlxalq mexanizmlər ilə əməkdaşlığa dair tam şəkildə aydınlıq gətirilməsinə ehtiyacın olduğu vurğulanmışdır (Baxın: PC-11128 - "Trial International", PC-11136 - Sülh və Silahlı Münaqişə üzrə Beynəlxalq Hüquq İnstitutu, Boxum Rur Universiteti və PC-11140 - Suriyanın Ədalət və Cavabdehliyin Təminatı Mərkəzi). Onlar bu cür məzmunun platformada saxlanmasının təkcə cinayətkarları deyil, eləcə də qurbanları müəyyənləşdirmək baxımından vacib olduğunu vurğulamışlar. (Baxın: məs, PC-11133 - Beynəlxalq və Müqayisəli Hüquq Mərkəzi, PC-11139 - Ukraynanın Rəqəmsal Təhlükəsizlik Laboratoriyası və PC-11145 - Hüquqların Sərhədsiz Müdafiəsi QHT-si). Şuranın fikrincə öz xüsusi konteksti çərçivəsində qiymətləndirilən bu məzmun təkcə ictimaiyyəti məlumatlandırmaqdan savayı, eləcə də əsirlərin hüquqlarını qorumaq məqsədilə əsir götürən tərəfə real zamanda təzyiq göstərilməsinə öz töhfəsini vermişdir. Cenevrə

Konvensiyası (III) sənədinə uyğun olaraqICRC "şəxslərin itkin düşməsi hallarının qarşısını almaq və hərbi əsirlərin ləyaqətini və ya təhlükəsizliyini təhlükə altına atmadan ailə bağlarını qoruyub saxlamaq məqsədilə" hərbi əsirlər və onların ailə üzvləri arasında yazışma mübadiləsinə vasitəçilik edir.

67. Məzmuna xəbərdarlıq ekranı tətbiq etmək qərarı bu cür məzmuna könülsüz olaraq məruz qalma nəticəsində ruhi əzab yaşaya biləcək əsirlərin və onların qohumlarının hüquqlarına hörmətlə yanaşılaraq zəruri və mütənasib olmuşdur. "Nigeriyada kilsəyə hücumdan sonrakı video"-ya oxşar olaraq sözügedən işin məzmunu yaxın məsafədə üzləri görünən ölmüş cəsədləri və xəsarət alan insanları göstərən bir video və əsir götürənlər tərəfindən şifahi şəkildə təhqir edilərkən ağır narahatlıq hissi yaşayan hərbi əsirlərin audioyazısını ehtiva etmişdir. İşin məzmunu Şuranın "narahatlığa səbəb olan məzmun kimi işarələnib" ekranının arxasında yerləşdirilməməli olduğuna qərar verdiyi, məzmunu həmçinin silahlı münaqişədən bəhs edən "Rus şeiri" işindəki məzmun ilə ziddiyyət təşkil edir. O işin məzmunu qurbanın üzünün görünmədiyi, uzaq məsafədə yerdə uzanan insan bədəninin hərəkətsiz görüntüsünü ehtiva edirdi. Şura "fotoşəklin Meta-nın məzmun dəyərləndiriciləri üçün daxili təlimatlarında qeyd olunduğu kimi xəbərdarlıq ekranından istifadənin müvafiq olduğunu əsaslandıracaq zorakılıq elementlərini vizual olaraq aydın şəkildə göstərmədiyi" qənaətinə gəlmişdir. Sözügedən işdə xəbərdarlıq ekranının məzmunun əhatəsini və bu səbəbdən də onun geniş müzakirəyə təsirini azaltmış ola biləcəyi ehtimalına baxmayaraq, istifadəçilərə narahatlığa səbəb olan məzmuna baxıb-baxmamaq seçiminin verilməsi mütənasib bir addımdır. Videonun həssas xarakterli məzmununu və məzmunun platformada saxlanmasına ictimaiyyətin göstərdiyi yüksək marağı nəzərə alsaq, münaqişə yaşayan bölgələrdəki insanlar daxil olmaqla ictimaiyyətin bir çox şərhlərində xəbərdarlıq ekranının tətbiqinə üstünlük verilmişdir. (baxın: məs, PC-11139 - Ukraynanın Rəqəmsal Təhlükəsizlik Laboratoriyası, PC-11144 - İqor Mirzəxanyan və PC-11145 Hüquqların Sərhədsiz Müdafiəsi QHT-si).

## 9. Nəzarət Şurasının qərarı

Nəzarət Şurası "narahatlığa səbəb olan məzmun kimi işarələnib" xəbərdarlığı əlavə edərək Meta-nın məzmunu platformada saxlamaq qərarını qüvvədə saxlayır.

## 10. Tövsiyələr

A. Məzmuna dair siyasət

1. "Sabiq prezident Trampın fəaliyyətinin müvəqqəti dayandırılması" işindəki 14 saylı tövsiyəyə uyğun olaraq Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsində qeyd olunan qanlı cinayətlərə və ya kobud insan hüquqları pozuntularına dair sübutu qoruyub saxlamaq və bu mövzuda mövcud olan protokollarını aydın şəkildə ifadə etmək məqsədilə şirkətdaxili siyasətlərini yeniləyərək, müvafiq olduqda səlahiyyətli qurumlar ilə paylaşmağı üzərinə götürmək Meta-ya tövsiyə olunur. Protokolun münaqişə vəziyyətləri mövzusunda diqqətli olması tövsiyə olunur. Onun aşağıdakılar ilə bağlı meyarları, prosesi və qoruma vasitələrini izah etməsi tövsiyə olunur: (1) məlumatın saxlanma müddətləri daxil olmaqla qoruyub saxlamanın başladılması və ona xitam verilməsi, (2) qoruyub saxlama ilə bağlı sorğuların qəbul edilməsi (3) və beynəlxalq cavabdehliyin təmin edilməsi mexanizmləri və məhkəmələr ilə məlumatların paylaşılması. Beynəlxalq standartlara və məlumatın qorunması üzrə mövcud qanunlara uyğun olaraq istifadəçilərin işə düzgün qaydada baxılma və şəxsi həyat ilə bağlı hüquqları üçün qoruma vasitələri mövcud olmalıdır. Vətəndaş cəmiyyətinin, elmi işçilərin və sahənin digər mütəxəssislərinin bu protokolun hazırlanması prosesinə cəlb olunmaları tövsiyə olunur. Meta özünün yenilənmiş daxili sənədlərini Şura ilə paylaşdıqda Şura bu tövsiyənin icra olunduğunu hesab edəcək.

B. İcra

2. İcranın davamlı olmasını təmin etmək məqsədilə bu qərarın 8-ci bölməsində təsvir olunan meyarlara uyğun olaraq hərbi əsirlərin yerini müəyyən edən və ya açıqlayan məzmuna məzmun paylaşma icazəsini tətbiq etməklə bağlı daha konkret təlimat təmin etmək üçün Meta-ya daxili icra standartlarını yeniləmək tövsiyə olunur. Bu, paylaşmaya uyğunluq ilə bağlı sözügedən məzmunun həm eskalasiyasını, həm də qiymətləndirilməsini təlimatlandırmaq üçün lazımdır. Meta bu düzəlişi daxil etdikdə və Şura ilə yenilənmiş təlimatı paylaşdıqda Şura bu tövsiyəni icra olunmuş hesab edəcək.

C. Şəffaflıq

3. İstifadəçilərə məqamları tam şəkildə aydınlaşdırmaq məqsədilə Meta-nın Şəffaflıq mərkəzindəki məzmun paylaşma icazəsi barədə öz izahatlarına hərbi əsirlərin şəxsiyyətini və ya yerini açıqlayan, lakin ictimaiyyətin göstərdiği marağa görə platformada saxlanılan məzmuna dair bir nümunə əlavə etməsi tövsiyə olunur. Meta məzmunun paylaşmaya uyğunluğu ilə bağlı səhifəsini hərbi əsirlərə ünvanlanan bir nümunə ilə yenilədikdə Şura bu tövsiyəni icra olunmuş hesab edəcək.

4. Qanlı cinayətlər və kobud insan hüquqları pozuntuları ilə bağlı sübutun qorunub saxlanması üzrə protokolun hazırlanmasının ardından Meta-ya bu protokolu Şəffaflıq mərkəzində hər kəsə açıq olaraq paylaşmaq tövsiyə olunur. Orada qoruyub saxlamanın başladılması və ona xitam verilməsi, məlumatın saxlanma müddətləri, eləcə də beynəlxalq cavabdehliyin təmin edilməsi mexanizmləri və məhkəmələr daxil olmaqla məlumatın qorunub saxlanması və səlahiyyətli qurumlar ilə paylaşılması ilə bağlı sorğuların qəbul edilməsi üçün proses və qoruma vasitələrinin ehtiva olunması tövsiyyə olunur. Beynəlxalq standartlara və məlumatın qorunması üzrə mövcud qanunlara uyğun olaraq istifadəçilərin işə düzgün qaydada baxılma və şəxsi həyat ilə bağlı hüquqları üçün qoruma vasitələri mövcud olmalıdır. Meta hər kəsə açıq olaraq bu protokolu paylaşdıqda Şura bu tövsiyəni icra olunmuş hesab edəcək.

***Prosedur qaydasına dair qeyd:**

Nəzarət Şurasının qərarı beş üzvdən ibarət heyət tərəfindən hazırlanır və Şuranın əksəriyyəti tərəfindən təsdiqlənir. Şuranın qərarları mütləq şəkildə bütün üzvlərin şəxsi baxışlarını əks etdirmir.

Bu işə dair qərar verilməsi üçün Şuranın adından müstəqil araşdırma icra edilmişdir. Altı qitədə 50-dən çox sosial elmi işçidən ibarət heyəti, eləcə də dünya üzrə 3.200-dən çox ölkədaxili mütəxəssisdən ibarət olan, baş qərargahı Göteborq Universitetində yerləşən müstəqil təhqiqat institutu tərəfindən Şuraya bu işdə yardımçı olmuşlar. Şuraya həmçinin birgə olaraq geosiyasət, qoruma və təhlükəsizlik və texnologiya sahələrinə fokuslanan bir məsləhət şirkəti olan “Duco Advosors" şirkəti də yardımçı olmuşdur. Həmçinin sosial media trendləri ilə bağlı könüllü şəkildə araşdırma ilə məşğul olan “Memetica" adlı bir təşkilat də təhlillər təmin etmişdir.